*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 mart 2020-ci il № 21 (2439) Qiyməti 30 qəpik


# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki



- Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram. Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir. Əsrlərboyu Azərbaycan xalqı bu gözəl bayramı qeyd edir.

Bu il koronavirusa görə kütləvi tədbirlərin keçirilməsi mümkün deyil. Əminəm ki, Azərbaycan xalqı bu vəziyyəti yaxşı anlayır. Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək üçündür. Ona görə xahiş edirəm ki, hər bir vətəndaş öz məsuliyyətini dərk etsin və yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişdim və bir daha demək istəyirəm ki, bu, bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməldə göstərilməlidir. Çünki bu xəstəliklə bağlı ən ağır fəsadlar məhz yaşlı nəslin nümayəndələrində müşahidə olunur. Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir.

İlin əvvəlindən görülmüş işlər ölkəmizin uğurlu inkişafını bir daha təsdiqləyir, Azərbaycan müasirləşir, yeniləşir. Azərbaycanda aparılan islahatlar demək olar ki, bütün sahələri əhatə edir. 2019-cu ildə aparılan islahatlar iqtisadi sahədə böyük dəyişikliklərə səbəb oldu. Məhz şəffaflıq prinsiplərinin tətbiqi nəticəsində dövlət büdcəsinə 1 milyard manatdan çox vəsait daxil edildi və bu vəsait son qəpiyinə qədər insanların sosial problemlərinin həllinə istiqamətləndirildi. Bildiyiniz kimi, keçən il Azərbaycanın 4,2 milyon vətəndaşı dövlət tərəfindən görülmüş tədbirlər nəticəsində öz maddi vəziyyətini yaxşılaşdırdı, maaşlar, pensiyalar, sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Bu, bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır. Bu istiqamətdə bundan sonra da işlər aparılacaq. 2020-ci ilin ilk iki ayı onu göstərir ki, bu istiqamətdə əlavə tədbirlərin görülməsi mümkün olacaqdır.

İlin əvvəlindən ölkəmizdə proseslər müsbət istiqamətdə gedir, Azərbaycanda sabitlik, təhlükəsizlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir, vəhdətidir. Bu birlik özünü bir daha parlament seçkilərində göstərmişdir. Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisədir. Parlament seçkiləri ölkəmizdə aparılan siyasətin xalq tərəfindən yüksək qiymətləndirildiyini bir daha ifadə etdi. Parlament seçkilərində Azərbaycan xalqının iradəsi öz əksini tapdı və Azərbaycan cəmiyyəti bu seçkilərin nəticələrindən məmnun qaldı.

Yeni parlamentin qarşısında duran vəzifələr haqqında mən parlamentin ilk iclasında öz sözlərimi demişəm. Əlavə etmək istərdim ki, parlamentin tərkibi yenidən formalaşdı və ilk dəfə olaraq parlamentin rəhbərliyində müxalifət nümayəndələri də yer aldı. Eyni zamanda, parlament komitələrinin rəhbərliyində də müxalifət nümayəndələri təmsil olunur. Bu, ölkəmizin tarixində ilk dəfə baş verən hadisədir və bir daha onu göstərir ki, bizim niyyətimiz çoxpartiyalı sistemin təkmilləşdirilməsidir. Sirr deyil ki, parlamentdə səslərin çoxluğu Yeni Azərbaycan Partiyasına məxsusdur. Əlbəttə, Yeni Azərbaycan Partiyasının razılığı olmadan bu islahatlar aparıla bilməzdi. Bu, onu göstərir ki, bu istiqamətdə atılan addımlar ölkəmizin gələcək uğurlu inkişafına müsbət təsir edəcək və ölkəmizdə siyasi sistemin yeni konfiqurasiyası formalaşır.

Eyni zamanda, Prezident Administrasiyası bütün siyasi partiyalara dialoq təklifi etmişdir. Bu da çox ciddi addımdır. Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı tarixdə olmadığı qədər güclüdür. Biz hesab edirik ki, güclü ilk addımı atmalıdır, ilk təklifi verməlidir və belə demək mümkündürsə, yolunu azmışlara da yol göstərməlidir. Yəni, biz bunu etdik və şadam ki, siyasi spektrin mütləq əksəriyyəti bu təşəbbüsə müsbət reaksiya vermişdir, faktiki olaraq siyasi dialoq artıq başlamışdır. Əminəm ki, bunun nəticələri də xalqımız üçün və ölkəmizin gələcək inkişafı üçün müsbət olacaqdır. O ki qaldı, bu dialoqdan imtina edən qruplaşmalara, onlar özləri bilərlər. Hər halda mən demişəm, bir daha demək istəyirəm, uduzan tərəf biz olmayacağıq və yeni siyasi konfiqurasiyada satqın, xain beşinci kolonun nümayəndələrinə yer olmayacaq. Azərbaycan təmizlənir, o cümlədən satqınlardan, xainlərdən, beşinci kolonun nümayəndələrindən təmizlənir və təmizlənməlidir. Eyni zamanda, Azərbaycan xalqı yaxşı görür ki, xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır, korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da mübarizə aparılacaqdır. Son hadisələr, bu istiqamətdə atılan addımlar bunu bir daha göstərir.

İlin əvvəlindən bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Mənim xarici tərəfdaşlarımla ikitərəfli formatda keçirilmiş görüşlər bir daha onu göstərdi ki, Azərbaycanın dünyada çox böyük hörməti var və bizim siyasətimizə böyük rəğbət var. Eyni zamanda, beynəlxalq tədbirlərdə mənim iştirakım ölkəmizin mövqelərini daha da gücləndirdi. Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumu dünyanın bir nömrəli siyasi və iqtisadi forumudur. Dünyanın siyasi və biznes elitası bu forumda iştirak edir. Mən bu forumda ardıcıl olaraq uzun illərdir ki, iştirak edirəm və hər bir iştirak ölkəmizə yeni dividendlər gətirir, həm siyasi, həm iqtisadi. Bu dəfə bir daha əmin oldum ki, Azərbaycanda gedən proseslərə böyük maraq var. Bütün tərəfmüqabillərim demək olar bir məsələni qeyd edirdilər ki, Azərbaycan sabit ölkədir və bu gün qeyri-sabit bölgədə, qeyri-sabit dünyada sabitliyi qorumaq böyük məharət və siyasi səriştə tələb edir. Sabitliyin mövcudluğuna görə Azərbaycana sərmayə qoyuluşu da təmin edilir. Keçən il 13,5 milyard dollar xarici sərmayə qoyulubdur, bu ilin yanvar ayında bərpaolunan enerji növlərinin yaradılmasına yönəlmiş 440 milyon dollar xarici sərmayənin qoyuluşu ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır. Ümumiyyətlə, Davos İqtisadi Forumunda bizim iştirakımız çox uğurlu olub. Davos Ümumdünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzi məhz Azərbaycanda yaradılacaq. Bu mərkəz Qafqaz-Orta Asiya məkanını əhatə edəcəkdir və müvafiq sənəd də imzalanmışdır. Bu, bir daha bizim güclü mövqelərimizi ifadə edir.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

(Əvvəli 1-ci səhifədə)

Eyni zamanda, hesab edirəm ki, dünyada təhlükəsizlik sahəsində digər bir nömrəli konfrans Münxen Təhlükəsizlik Konfransıdır. Bu konfransda da mən müntəzəm olaraq iştirak edirəm və hər dəfə Azərbaycan həqiqətlərini geniş auditoriyaya çatdırıram. O cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, haqlı olduğunu və tarixi aspektləri çatdırıram. Bu dəfə isə daha gözəl fürsət yaranmışdır, Azərbaycan xalqının və dünyanın gözü qarşısında Azərbaycan öz üstünlüyünü bir daha ifadə etmişdir. Tarixi həqiqət, beynəlxalq hüququn normaları bizim tərəfimizdədir. Münxen Təhlükəsizlik Konfransında Ermənistanın və dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vurulmuşdur. Demək olar ki, onların təbliğatı sübutlar, tarixi faktlar, beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr və qərarlar əsasında darmadağın edilmişdir. Hesab edirəm ki, bu sarsıdıcı zərbə erməni təbliğatının sonudur. Münxen Təhlükəsizlik Konfransının auditoriyası kifayət qədər genişdir. Azərbaycan və Ermənistan rəhbərlərinin canlı debatının ilk dəfə keçirildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu debatlara çox böyük maraq var idi və milyonlarla insan bu debatları həm canlı formatda, həm də ondan sonra izləyə bilmişdir. Ona görə bizim haqq işimiz bir daha öz təsdiqini tapdı və bütün dünya bir daha gördü ki, - mən bunu Valday Forumunda da canlı efirdə demişdim, - Qarabağ Azərbaycandır və nida işarəsi.

Bu il iqtisadi sahədə əldə edilmiş uğurlar əlbəttə ki, bizi çox sevindirir. İki ayda ümumi daxili məhsul 2,8 faiz artmışdır. Qeyri-neft sektorunda iqtisadiyyat 6,7 faiz artmışdır. Qeyri-neft sektorunda sənaye istehsalı 21,7 faiz artmışdır. Əhalinin pul gəlirləri 9 faiz artmışdır, inflyasiya isə cəmi 2,8 faizdir.

Yenə də islahatlar hesabına və şəffaflıq tədbirlərinin görülməsi nəticəsində iki ayda dövlət büdcəsinə proqnozdan əlavə 252 milyon manat daxil edilmişdir. Bu, bir daha onu göstərir ki, şəffaflıqla bağlı görülən tədbirlər, kölgə iqtisadiyyatına qarşı aparılan siyasət öz nəticəsini verməkdədir. Əminəm ki, bu müsbət meyil ilin sonuna qədər davam edəcək və Azərbaycan iqtisadiyyatının hazırda kölgədə olan hissəsi kölgədən çıxacaq. Burada təkcə dövlət orqanlarının fəaliyyəti kifayət deyil. Biznes dairələri də öz məsuliyyətini dərk etməli və əyri yola getməməlidirlər, öz fəaliyyətini kölgədən çıxarmalıdırlar və dövlətin vergisini son qəpiyinə qədər ödəməlidirlər. Çünki bilməlidirlər ki, bu vergilər insanların maaşlarının, pensiyalarının artırılmasına istiqamətləndirilir.

Bu il sosial sahədə böyük işlərin görülməsi nəzərdə tutulur. İlin əvvəlindən üç böyük xəstəxana mənim iştirakımla açılmışdır - Goranboy, Şəmkir və Qazax şəhərlərində. Yenə də xəstəxanaların açılması nəzərdə tutulur və sosial infrastrukturun yaradılması istiqamətində işlər aparılacaqdır. Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti kəskin aşağı düşdü, bizim bütün sosial öhdəliklərimiz təmin ediləcək. Baxmayaraq ki, keçən il görülmüş tədbirlər və qəbul edilmiş qərarlar nəticəsində bizim sosial sahəyə nəzərdə tutulan büdcə xərclərimiz kifayət qədər artmışdır, ancaq bütün sosial öhdəliklər yerinə yetiriləcək və bütün sosial infrastruktur layihələri tam icra ediləcək.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuş 7 min mənzil tikilib istifadəyə veriləcək. Şəhid ailələri üçün nəzərdə tutulan 1500 mənzil tikilib istifadəyə veriləcəkdir. Bu məsələ ilə bağlı heç bir şübhə olmamalıdır. Əminəm ki, biz 2020-ci ili də uğurla başa vuracağıq. Halbuki bu gün bir çox ölkələr böyük çətinliklərlə üzləşiblər. Bu ölkələrdə həm siyasi sabitlik pozulur, həm iqtisadi böhran yaşanır və o cümlədən neft hasil edən ölkələrin bəziləri artıq neftin qiymətinin düşməsindən əziyyət çəkməyə başlayıblar. Koronavirus xəstəliyi əlbəttə ki, vəziyyəti çətinləşdirir. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, Azərbaycan bu sınaqdan da şərəflə və az itkilərlə çıxacaq. Buna nail olmaq üçün biz hamımız həmrəylik göstərməliyik, məsuliyyət göstərməliyik, birlik göstərməliyik. Dünya üçün bu çətin dövrdə həm xalqımızı, həm dövlətimizi qorumaq üçün xalqımızın ən ülvi xüsusiyyətlərini bir daha göstərməliyik və bunu dünyaya təqdim etməliyik.

Bildiyiniz kimi, koronavirus xəstəliyi dünya gündəliyinin bir nömrəli məsələsidir. Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiya elan edibdir və bəyan edibdir ki, pandemiyanın mərkəzi Avropa məkanıdır. Bu xəstəliyin geniş yayılması onu göstərir ki, hətta inkişaf etmiş ölkələr onun qarşısını ala bilmirlər. Bu xəstəliyə qarşı heç bir dərman, vaksin yoxdur və nə vaxt olacaq, heç kim bilmir. Ona görə bu xəstəliyin məhdudlaşdırılması və yayılmaması üçün biz bəri başdan, ən ilk günlərdən praktik addımlar atmağa başlamışıq. Mənim göstərişimlə yanvarın 24-dən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Bu qərargah 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı bütün işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir. Ciddi tədbirlər görülmüşdür. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə yanvarın 24-dən yeni əməkdaşlıq formatı çərçivəsində işləməyə başlamışıq. Onları ölkəmizə dəvət etmişik. Onların tövsiyələrinə riayət edərək ölkəmizdə çox ciddi tədbirlər görmüşük. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri mart ayında Azərbaycana gələrək, vəziyyətlə tanış olaraq bildirdilər ki, Azərbaycan rəhbərliyi koronavirusun yayılmaması üçün çox önəmli və təsirli tədbirlər görür. Bu, həqiqətən də belədir.

Bildiyiniz kimi, bütün uşaq bağçaları, məktəblər, ali məktəblər bağlandı. Kütləvi tədbirlərin keçirilməsi qadağan edildi. Martın 14-dən xüsusi davranış qaydaları tətbiq edildi və ictimaiyyətə bu məsələ ilə bağlı kifayət qədər məlumat verilir. Xəstəliklə, onun yayılması və nəticələri ilə bağlı mənim göstərişimlə vətəndaşlara müntəzəm olaraq bütün məlumatlar verilir. Karantin tədbirləri görülür, yeni laboratoriyalar alınıbdır. Qısa müddət ərzində ən müasir dörd laboratoriya alınıb gətirilib və hazırda bizim laboratoriyalarımızın sayı 10-a çatıb. Lazım olarsa, əlavə laboratoriyalar alınacaqdır. On xəstəxana xüsusi rejimdə işləyir. Bu xəstəxanalar ölkəmizin müxtəlif bölgələrində yerləşir, o cümlədən Bakı şəhərində. Bu xəstəxanalarda həm xəstələrin müalicəsi aparılır və həm də karantin tədbirləri görülür.

Bir çox ölkələrlə gediş-gəliş artıq məhdudlaşdırıldı, demək olar ki, tamamilə aradan qaldırıldı. Bir çox aviareyslər ləğv edildi, sərhədlərimizin bağlanması istiqamətində əməli addımlar atıldı, elektron vizaların verilməsi dayandırıldı və xəstəliyin geniş yayıldığı ölkələrdən Azərbaycana insanların gəlməsi qadağan edildi. Bütün bu tədbirlər əminəm ki, öz müsbət təsirini göstərəcək. Bizim əsas məqsədimiz bu xəstəliyin Azərbaycanda yayılmamasıdır. Buna nail olmaq üçün təkcə dövlət tərəfindən görülən tədbirlər kifayət deyil. Dövlət nə lazımsa edir, vəsait ayırır. Martın əvvəlində bu xəstəliklə mübarizə üçün 10 milyon manat vəsait ayrıldı. Bu gün bəyan edirəm, Prezidentin ehtiyat fondundan əlavə 20 milyon manat ayrılacaq ki, həm bu xəstəliyə qarşı mübarizə daha təsirli olsun, eyni zamanda, koronavirus xəstələrinə qulluq edən həkimlərin maddi təminatı daha da yüksək olsun. Biz bunu da nəzərə alırıq. Mən bir daha Azərbaycan həkimlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar bu xəstəliyə qarşı fədakarcasına mübarizə aparırlar, öz sağlamlıqlarını risk altına atırlar. Ancaq yüksək məsuliyyət, içdikləri and əlbəttə ki, onları bu işlərə sövq edir. Xəstələr də həkimlərə böyük diqqətlə yanaşmalıdırlar. Bu, indiyədək dünyada görünməmiş xəstəlikdir və bu xəstəliyin yayılması templəri də bizə bəlli deyil. İnkişaf etmiş bir neçə ölkədə artıq bu xəstəlik bir-iki gün ərzində geniş vüsət alır. Bu, onu göstərir ki, xəstəliyin sanki akkumulyasiya dövrü vardır, ondan sonra bu xəstəlik geniş yayılır. Bu xəstəliyin yayılmaması üçün ilk növbədə, bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Əgər kimsə özündə xəstəlik simptomu hiss edərsə, dərhal həkimlərə müraciət etməlidir, dərhal özünü təcrid etməlidir, kütləvi yerlərə getməməlidir, lazım olmadan kütləvi tədbirlərdə iştirak etməməlidir. Bu tədbirlər artıq ləğv olunub, amma istisna deyil ki, hansısa məsuliyyətsiz adamlar qaydalara uyğun olmayan hərəkətlər etsinlər. Mən bəri başdan hər kəsi xəbərdar etmək istəyirəm, ciddi tədbirlər görüləcək. Çünki bu, milli məsələdir, xalqımızın sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir. Hər kəs bilsin, əgər martın 14-də elan olunmuş qaydalara kimsə əməl etməsə, çox ciddi məsuliyyətə cəlb ediləcək.

Təəssüflər ki, məsuliyyətsizliklə əlaqədar faktlar daxil olur. Eyni zamanda, biz açıq təxribatı da görürük. Bu təxribat haradan gəlir, həmin o beşinci kolondan, içimizdə oturan düşmənlərdən, özünü müxalifət adlandıran ünsürlərdən, xaricdən pul alan satqınlardan. Onların əsas məqsədi Azərbaycanı məhv etməkdir. Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Baxın onların sosial şəbəkələrdəki çıxışlarına, nifrətlə, təxribatla doludur. Sanki istəyirlər ki, iğtişaş olsun. İstəyirlər ki, aləm qarışsın. İstəyirlər ki, panika olsun. Sonra da deyirlər ki, onlar Azərbaycan xalqının qayğıları ilə yaşayırlar. Onlar düşməndirlər və biz bunu açıq deməliyik. Bu xəstəlik hələ bilinmir nəyə gətirib çıxaracaq. Ona görə bu xəstəlik dövründə tamamilə yeni münasibətlər qaydaları mövcud olacaqdır. Hər kəs bunu bilsin və istisna edilmir ki, nə vaxtsa fövqəladə vəziyyət də elan oluna bilər. Belə olan halda, bu beşinci kolonun nümayəndələrinin təcrid edilməsi artıq tarixi zərurət olacaq. Azərbaycan xalqı onları tarixin zibilxanasına çoxdan atıbdır. Orada onlar artıq 30 ilə yaxındır ki, çürüyürlər. Amma biz imkan verə bilmərik ki, anti-Azərbaycan qüvvələr, beşinci kolon, milli satqınlar bu vəziyyətdən istifadə edib hansısa təxribat törətsinlər. Hər kəs bunu bilsin. Bizim siyasətimiz birmənalıdır, bizim iradəmiz qətidir. Biz hər zaman olduğu kimi, Azərbaycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın.

Əziz həmvətənlər, bacılar və qardaşlar, dünya yeni dövrə qədəm qoyur. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, bilinmir bu xəstəliyin sonu nə vaxt olacaq və bu xəstəlik hansı fəsadlara gətirib çıxaracaq. Ona görə bir daha bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ çıxacağıq.

Bir daha əziz xalqımı bu gözəl bayram münasibətilə təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

---

## Nazirlər Kabineti yanında operativ qərargah koronavirus epidemiyası ilə bağlı vəziyyəti və vətəndaşların təxliyəsi məsələsini müzakirə edib

*Ölkə ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə tədbirlər davam etdirilir.*

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 17-də Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilən iclasda koronavirus epidemiyası ilə bağlı ölkədəki vəziyyət və hadisələrin mümkün inkişafı variantları, müxtəlif variantlarda hansı tədbirlərin görüləcəyi müzakirə olunub.

Baş nazir İtaliya, Türkiyə, Macarıstan və buraya yaxın ölkələrdən Azərbaycana qayıdan vətəndaşlarımızın karantinə yerləşdiriləcəyi barədə məlumat verib. İclasda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan və Rusiya vətəndaşlarının qarşılıqlı səfərlərinin 2020-ci il martın 18-də saat 00.00-dan etibarən müvəqqəti olaraq dayandırılması barədə də qərar qəbul edildiyi vurğulanıb. Qeyd olunub ki, ölkəyə qayıtmaq istəyən Azərbaycan vətəndaşları üçün çarter reysləri təşkil ediləcək.

İclasda, həmçinin martın 19-da saat 00:00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəzabərpa, xilasedici, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılmasının martın 29-dək dayandırıldığı barədə də məlumat verilib.

# Azərbaycan Ordusunda görülən işlər daima Ali Baş Komandanın diqqət mərkəzindədir

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev və nazirliyin digər rəhbər heyəti ön xətdə yerləşən hərbi hissələrdən birində olublar.*





Hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitlə tanışlıqdan sonra zirehli döyüş texnikası üçün saxlanclara, avtoparka, zabit və əsgər yataqxanalarına, qazanxana, camaşırxana, tibb məntəqəsi, ərzaq və əşya anbarları, eləcə də digər xidməti və inzibati otaqlara baxış keçirilib.

Müdafiə nazirinin əmri ilə döyüş texnikasının təlim-həyəcan siqnalı ilə əraziyə çıxarılması tapşırığı uğurla icra olunub.

Qoşunların təmas xəttindəki əməliyyat şəraiti barədə məruzələri dinlədikdən və bölmələrdəki vəziyyətlə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov və general-polkovnik Məhərrəm Əliyev üzbəüz yerləşən düşmən mövqelərini müşahidə ediblər. Müdafiə naziri bölmələrin daim döyüşə hazır vəziyyətdə olması barədə müvafiq tapşırıqlar verib.

Sonra Horadiz şəhərində yerləşən Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.

Ön xətdə olan Müdafiə naziri Lələtəpə istiqamətindəki döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüb, onların xidmət şəraiti ilə maraqlanıb. Şəxsi heyətlə görüş zamanı Ali Baş Komandanın rəhbərliyi altında aparılan genişmiqyaslı hərbi islahatlar, həmçinin hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması barədə danışan general-polkovnik Məhərrəm Əliyev bu məsələlərin ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Sonda Novruz bayramı münasibətilə Ali Baş Komandanın təbrikləri şəxsi heyətə çatdırılıb, ön xətdə xidmət edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim olunub və onlarla bayram süfrəsi arxasında söhbət aparılıb.

## Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Təbiətin əbədi qanunları və kainatın dəyişməz nizamı ilə əlaqədar olan Novruz bayramı ənənələrinin qorunub saxlanılması milli-mənəvi dəyərlərimizə hörmət və sevginin təzahürüdür.

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi olaraq bu gün Novruz ümumxalq və dövlət bayramı səviyyəsində ölkəmizdə böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub, iqtisadiyyatımızın fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib.

Ordu quruculuğu həmişə dövlət üçün prioritet olub. Böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Ordusu nizami ordu kimi formalaşmağa başladı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ordu quruculuğunu dinamik inkişaf etdirdi. İndi Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır.

Hərtərəfli iqtisadi inkişaf ordu quruculuğunun daha geniş miqyasda inkişafını təmin edib. Həyata keçirilən irimiqyaslı islahatlar, genişmiqyaslı təlimlər şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksəltməklə ölkəmizin müdafiə qüdrətini daha da artırıb.

İnanıram ki, Vətən qarşısında borcunuzu bundan sonra da vicdanla yerinə yetirəcəksiniz. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və Nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə etməklə Ali Baş Komandanın hər bir əmrinə hazır olacaqsınız.

Bu bayram günlərində şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailə üzvlərini, Vətən uğrunda sağlamlıqlarını itirən döyüşçülərimizi, veteranları təbrik edirəm.

Bir daha hər birinizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Novruz bayramınız mübarək!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Cəbhə bölgəsindəki hərbi hissələrin ziyarəti davam edir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, cəbhə bölgəsində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev və nazirliyin digər rəhbər heyətinin ön xətdə yerləşən bir sıra hərbi hissələrə səfəri davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhə bölgəsində yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirilib, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqələri və digər hərbi obyektlər, həmçinin bölmələrin silahlanmasında olan zirehli döyüş texnikası, aviasiya eskadrilyası və digər hərbi təyinatlı vasitələrə baxış keçirilib.

Görüşlər zamanı burada yaradılan şəraitlə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov və general-polkovnik Məhərrəm Əliyev Novruz bayramı münasibətilə Ali Baş Komandanın təbriklərini hərbi qulluqçulara çatdırıblar. Görüşdə hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər barədə danışılıb və bu işlərin bundan sonra da davam etdiriləcəyi diqqətə çatdırılıb. Hərbi qulluqçular və onların ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana minnətdarlıqlarını bildiriblər.

Sonra general-polkovnik Zakir Həsənov və general-polkovnik Məhərrəm Əliyev hərbi hissədə çalışan mülki işçilərlə görüşərək şəxsi heyətin təminatı ilə maraqlanıb, onları bayram münasibətilə təbrik edib, işlərində müvəffəqiyyətlər arzulayıblar.

## Müdafiə Nazirliyi tərəfindən vətəndaşların qəbulu və qeydiyyatı müvəqqəti olaraq yalnız elektron qaydada və telefon vasitəsilə həyata keçirilir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, koronavirus (COVID-19) infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə yaradılan Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın apardığı mübarizə tədbirləri ilə əlaqədar Müdafiə Nazirliyi tərəfindən vətəndaşların qəbulu və qeydiyyatı müvəqqəti olaraq yalnız elektron qaydada və telefon vasitəsilə həyata keçirilməyə başlayıb.

Müraciətlərin fasiləsiz qəbulu və baxılmasının operativliyinin təmin edilməsi məqsədilə vətəndaşların Müdafiə Nazirliyinin pressmd@mod.gov.az, dti@mod.gov.az elektron poçt ünvanlarına və ya (012) 912 qaynar xətt nömrəsinə müraciət etmələri xahiş olunur.

# Müdafiə naziri xidməti müşavirə keçirib

*Martın 14-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirləri, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında çıxışında səsləndirdiyi məqamları bir daha müşavirə iştirakçılarına xatırladan Müdafiə naziri dövlət başçısının rəhbərliyi ilə Azərbaycan Ordusunda həyata keçirilən islahatların davam etdirilməsi və qarşıda duran vəzifələrin icrası ilə bağlı bir sıra tapşırıqları diqqətə çatdırıb.

General-polkovnik Zakir Həsənov müşavirədə şəxsi heyətin Vətənə, dövlətə və Ali Baş Komandana misilsiz sədaqət, milli-mənəvi dəyərlər, vətənpərvərlik, milli köklərə bağlılıq və döyüş ruhunda tərbiyə edilməsinin, hərbi intizamın möhkəmləndirilməsinin vacibliyini xüsusi qeyd edib.

Cəbhədəki əməliyyat şəraitini təhlil edən Müdafiə naziri düşmənin ehtimal olunan təxribatlarının qarşısının dərhal alınması məqsədilə lazımi qüvvə və vasitələrdən istifadə edilməsi, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, intensiv döyüş hazırlığı səviyyəsinin artırılması üçün hərbi hissələrdə, əsasən ön xətdə yerləşən bölmələrdə keçirilən döyüş hazırlığı tədbirlərinin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilməsi, döyüş növbətçiliyinə cəlb edilən hərbi qulluqçuların sayıqlığının artırılması, həmçinin bölmələrin maddi-texniki təminat imkanlarının daha da genişləndirilməsi ilə bağlı komandirrəis heyətinə əmr verib.

Cari ayın əvvəlində Azərbaycan Ordusunda keçirilmiş genişmiqyaslı komanda-qərargah təlimlərinin nəticələri barədə danışan Müdafiə naziri döyüş hazırlığı tədbirlərində ən müasir idarəetmə üsullarından istifadənin əhəmiyyətini qeyd edib. Nazir bildirib ki, Türkiyə Silahlı Qüvvələrinin döyüş təcrübəsini öyrənərək ordumuzun hazırlıq planına daxil edilməsi, ikitərəfli hərbi əməkdaşlıq çərçivəsində qarşılıqlı təcrübə mübadiləsi, Türkiyə istehsalı olan müasir silah, hərbi texnika və avadanlıqların alınması bundan sonra da davam etdiriləcək.

Müdafiə naziri bütün hərbi hissə və bölmələrdə silah, döyüş və xüsusi texnikanın istismarının yay mövsümünə keçirilməsi prosesi, hərbi obyektlərin hazırlığının, o cümlədən qış mövsümündən sonra müdafiə zolağı və mühəndis qurğularının vəziyyəti ilə maraqlanıb və müvafiq göstərişlər verib.

Mövsümi yoluxucu xəstəliklər və koronavirus infeksiyasına yoluxma ehtimalının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlərdən danışan Müdafiə naziri hərbi hissələrdə müvafiq tibbi və sanitar-epidemioloji tədbirlərin gücləndirilməsini tələb edib. Nazir hərbi hissə və müəssisələrdə dezinfeksiya işlərinin gücləndirilmiş rejimdə davam etdirilməsi, hərbi qulluqçuların mütəmadi maarifləndirilməsi, eləcə də şəxsi gigiyena qaydalarına riayət olunmasına diqqətin daha da artırılması, o cümlədən kütləvi tədbirlərin keçirilməsinin məhdudlaşdırılması və valideynlərlə görüşlərin müvəqqəti dayandırılması barədə bir daha göstəriş verib.

Müşavirənin sonunda Müdafiə naziri rəhbər heyətə xidməti və döyüş fəaliyyəti ilə bağlı bir sıra tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Heydər Əliyev adına Hərbi Liseyin yaranmasının 22-ci ildönümü münasibətilə tədbir keçirilib

*Şərəfli zabit həyatı yaşayaraq gələcək nəsillərə örnək olmaq arzusu bu gün hər bir kursantın həyat amalına çevrilib. Hər bir gənc də Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığına görə fəxr hissi ilə özünü əsl Vətən müdafiəçisi bilir. Hazırda Hərbi liseyin 3 mindən çox məzunu müxtəlif qoşun növlərində şərəflə xidmət edirlər. Bu fikirlər Heydər Əliyev adına Hərbi Liseyin yaranmasının 22-ci ildönümü münasibətilə keçirilən tədbirdə səsləndirilib.*



Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Məhəmməd Həsənov Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil Hərbi lisey fəaliyyət göstərməyə başlayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun diqqət və qayğısı ilə Hərbi lisey yarandığı gündən indiyədək mühüm təşkilatlanma və inkişaf yolu keçərək möhkəm maddi-texniki bazaya malik nümunəvi hərbi təhsil müəssisəsinə çevrilib. Vətəninə, dövlətinə və xalqına sədaqətli, vətənpərvər, tam orta təhsil üzrə yüksək biliklərə malik, fiziki cəhətdən sağlam və intizamlı gənclər yetişdirmək kimi məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gələn Heydər Əliyev adına Hərbi Liseyin tədris imkanları xeyli genişləndirilib. Burada kursantların məişəti, təhsili, sağlamlığı, fiziki tərbiyəsi üçün lazımi şərait yaradılıb.

Təbrik oxunduqdan sonra şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

# Əlahiddə Ümumqoşun Ordu üçün Mərkəzi Hərbi Xəstəxananın inşası davam edir



Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər çərçivəsində Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordu üçün 4 min 92 kvadratmetr ərazini əhatə edən Mərkəzi Hərbi Xəstəxana inşa olunur.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan hərbi xəstəxananın hər mərtəbəsində 5 bölmə və müxtəlif şöbələr fəaliyyət göstərəcək. Binada 250-yə yaxın otağın olması nəzərdə tutulub. Hərbi xəstəxanada travmatologiya, poliklinika, anesteziologiya, intensiv terapiya, reanimasiya, qəbul çeşidləmə, əməliyyat, cərrahiyyə, VİP, urologiya, psixonevrologiya bölmələri, laboratoriya, yeməkxana və digər infrastruktur şəraiti yaradılacaq. Hər mərtəbədə 4 lift və veb-kameralar quraşdırılacaq. Xəstəxana gələcəkdə qabaqcıl ölkələrin istehsalı olan müasir tibbi avadanlıqlarla təchiz ediləcək və burada hərbi qulluqçuların tibbi müayinə və müalicəsinin keyfiyyətlə aparılması üçün nümunəvi şərait yaradılacaqdır.

Xəstəxana ərazisində helikopter meydançası yaradılıb ki, bu da təxirəsalınmaz hallarda xəstələrə təcili tibbi yardım göstərilməsinə imkan verəcək.

398 çarpayılıq hərbi xəstəxananın dam örtüyü vurulub, bütün mərtəbələrdə kommunikasiya xətlərinin çəkilişi başa çatıb, havalandırma sistemi quraşdırılıb. Binanın su və kanalizasiya xətlərinin çəkilişi yekunlaşıb. İnşaatçılar dəmir konstruksiya və izolyasiya işlərini davam etdirirlər. Hazırda xəstəxananın ətrafındakı piyada yollarına kilid daş döşənir. Burada yaşıllıqlar və gülkarlıqlar salınacaq, müasir işıqlandırma sistemi qurulacaqdır.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordu üçün inşa olunan Mərkəzi Hərbi Xəstəxana istifadəyə verildikdən sonra MDB məkanında ən böyük mərkəzi hərbi xəstəxanalardan biri olacaq.

*Qələbə - 75*

# “Reyxstaqın divarına mən də adımı yazdım”

*Rubrikamızın qonağı görkəmli hərbi xadim - lüləli zenit batareyası komandirindən Zaqafqaziya Hava Hücumundan Müdafiə Dairəsinin komandanı vəzifəsinə qədər şərəfli xidmət yolu keçmiş, hazırda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynovdur.*



**- Bir əsrə yaxın ömür yaşayan Tofiq müəllim geriyə dönüb baxanda ilk olaraq nəyi, nələri xatırlayır?**

- İlk olaraq Kiçik Qafqazın ətəklərində yaşıllığa qərq olmuş və doğulub 7 il yaşadığım evi xatırlayıram. Bu günə qədər işıqlı xatirələrim o illərlə bağlıdır. Həyatın ilk sınaqları insan üçün həmişə qiymətlidir. Atamdan, anamdan, iki böyük qardaşımdan və məndən ibarət çox mehriban ailəmiz vardı. Daim qayğımıza qalan valideynlərimiz həmişə bizim üçün nümunə olublar. Sovet hakimiyyətinin möhkəmləndirildiyi 20-ci illər bizim tərbiyə və təhsilimizə də öz təsirini göstərib. Mən və qardaşlarım bir çox ziyalı ailələrində olduğu kimi, rus dilində təhsil almışıq. Bu, o illərdə Avropa mədəniyyəti ilə daha yaxından tanış olmağımıza imkan verirdi.

**- Sovet hakimiyyəti illərində yaşayan, müstəqil Azərbaycanın elan olunmasını görən bir hərbi xadim kimi sizin bir çox hadisələri təhlil edib qiymətləndirməyə haqqınız çatır...**

- Hər bir nəslin həyatında həm sarsıntılı, həm də yüksəliş dövrləri olur. Mən həyatın acısını da, şirinini də dadmışam. Müharibədə iştirak etmişəm, vəzifə pillələri ilə yüksəlmişəm, ailəmiz repressiya illərində çətin günlər yaşayıb, əzizlərimi, doğmalarımı vaxtından əvvəl itirmişəm. Həyatımda baş verən sarsıntıları, faciələri dəf etməyə, şəxsiyyət kimi geri çəkilməməyə, hər bir çətinliyə sinə gərməyə özümdə qüvvə tapmışam. Məncə bu, əsas şərtdir. Yaşadığım həyatı bir Azərbaycan oğlu kimi təhlil edəndə belə nəticəyə gələrəm ki, şəxsiyyət yalnız müstəqil Vətəndə formalaşıb, işləyib, öz xalqına xeyir verə bilər.

**- Tofiq müəllim, bilirik ki, siz ziyalı, həkim ailəsində dünyaya göz açmısınız. Yəqin ki, bu amillərin də sizin həyatınızda rolu az olmayıb...**

- Əlbəttə, atam dövrünün ən tanınmış həkimlərindən biri olub. O, Kiyev Tibb İnstitutunu bitirmişdi. Mən 1923-cü il fevralın 1-də Şəki şəhərində anadan olmuşam. Atam həkim olduğundan ailəmiz böyük nüfuza malik idi. Zamanın tələbinə və anamın təkidinə görə belə qərara alındı ki, biz paytaxtda təhsil alaq. 1930-cu ildə ailəmiz Bakıya köçdü. Mən rus təmayüllü məktəbin birinci sinfinə daxil oldum. İlk müəllimimiz son dərəcə ciddi və tələbkar idi. Yaxşı oxuyurdum. Azərbaycan və rus bölmələrindən ibarət olan məktəbimizin savadlı və istedadlı müəllim kollektivi vardı. Ölkədə çağırış yaşınaqədərki gənclərlə aparılan işlər böyük vüsət almışdı. Məktəbdə hərbi dərslər də keçirilirdi. Çoxlu tir açılmışdı. Aeroklublar fəaliyyət göstərirdi...

**- Orta məktəbi bitirdikdən sonra sənədlərinizi hansı ali təhsil ocağına təqdim etdiniz?**

- Məndən iki yaş böyük qardaşım Rəhim Ağahüseynov Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) tələbəsiydi. 1939-cu ildə o, orduya çağırıldı. Hərbi xidmətini keçmək üçün Qərbi Ukraynaya göndərildi. Mən də qardaşımın yolu ilə getdim. 1940-cı ildə sənədlərimi hazırlayıb onun oxuduğu Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsinə verdim. Qəbul olundum. Onu da qeyd edim ki, 1922-ci ildə anadan olan dostlarımın çoxunun hərbi xidmətə çağırışla bağlı sənədlərini ali məktəblərə qəbul etmirdilər. Artıq bu o dövr idi ki, rus-fin müharibəsi başlamışdı...

**- Bəs, 30-cu illərin repressiyasını necə xatırlayırsınız?**

- Həmin illərdə bizim ailənin də başı üzərində təhlükə vardı. Kiyev Tibb İnstitutunda atamla bir yerdə oxuyanların çoxunu həbs etmişdilər. Həbsdən yayınmaq üçün atam Qubaya getdi, biz isə Bakıda qaldıq. Elə bu arada Almaniyada oxuduğuna görə dayım həbs edildi. O, tanınmış mühəndis idi, Leninqradda işləyirdi. Siyasi xadim Ruhulla Axundovun oğlu Fərid Axundov bizimlə oxuyurdu. Onunla yaxın dost idik. Əvvəlcə atasını, sonra isə anasını həbs etdilər. Özü isə Bakıdan çıxıb getdi. 1941-ci ildə Moskvanın müdafiəsində həlak oldu.

**- Tofiq müəllim, Böyük Vətən müharibəsi başlayanda neçənci kursda oxuyurdunuz? O ağır müharibə illəri ilə bağlı hansı xatirələr yaddaşınızda mühafizə olunub?**

- İkinci kursda oxuyarkən müharibə başlandı. Onda mənim 18 yaşım vardı. 1941-ci ilin 22 iyun axşamı atamla şəhərdə idim. Axşam saatlarında evə qayıdarkən yolda atamın rastlaşdığı bir tanışı dedi ki, radio ilə müharibənin başlanması xəbərini veriblər. Qardaşım Qərbi Ukraynada xidmət etdiyindən atam çox həyəcanlandı. Tezliklə atamı da orduya çağırdılar. O, Yevlaxdakı hospitalın rəisi təyin olundu. Hospital formalaşdırıldıqdan sonra cəbhəyə yola salınacaqdı. Sentyabrın 1-də dərslər başlasa da, özümüzü heç cür oxumağa kökləyə bilmirdik. Hərbi məktəblərin nümayəndələri tez-tez institutumuza gəlir, könüllü olaraq bu təhsil ocaqlarına oxumaq istəyən gəncləri toplayırdılar. Mən də Bakıdakı zenit-artilleriya məktəbinə daxil olmağı qərara aldım.

**- Bakı zenit-artilleriya məktəbinin kursantı Tofiq müəllimin döyüş yolu haradan başlandı?**

- Yarım il ərzində sürətli təlim kursu keçdilər. Bizə leytenant hərbi rütbəsi verdilər, Arxangelskdə yerləşən 160-cı əlahiddə zenit-artilleriya divizionuna taqım komandiri təyin olundum. Bu dövrdə Sovet İttifaqına ərzaq, silah gətirən ingilis, amerikan gəmiləri öz yüklərini şimal limanlarında - Murmanskda və Arxangelskdə boşaldırdılar. Bizim diviziya həmin yüklərin müdafiəsini, qorunmasını təmin edirdi. Xüsusilə Arxangelskdə gecələr aviahücumlar olurdu. Şəhər əsasən taxta tikililərdən ibarət idi, odur ki, tez-tez yanğınlar baş verirdi. Yarım il burada xidmət etdikdən sonra komandanlıq bütün divizionu Arxangelskdən çıxarıb dəmiryol qovşağını, aerodromu müdafiə etmək üçün Obezersk stansiyası rayonunda yerləşdirməyi qərara aldı.

**- Döyüş epizodlarınızdan hansılarını xatırlayırsınız?**

- Cəbhə həyatımda ilk dəfə verdiyim "Atəş" komandasını yaxşı xatırlayıram. Düşmən yunkerslərinin mövqelərimizə doğru irəlilədiyini gördük. Atəşə hazırlıq üçün bütün tədbirləri görüb "Atəş" komandası verdim. Biz zenitçilər mərmilərin partlamasını, düşmən təyyarələrinin ətrafında ağ-qara ləkələrin yaranmasını həyəcanla izlədik. Yunkerslərin biri o tərəf bu tərəfə şütüməyə başladı. Bu da onları xilas edə bilmədi. Mərmi hədəfə dəyəndən sonra təyyarə havada cəmi bir-iki dəqiqə ləngərlədi. Partlayışın tüstüsü onu bürüdü. Təyyarə idarəetməni itirib yerə çırpıldı. Düşmən aviasiyasının hücumu dəf edildikdən sonra hava həyəcanının dayandırılması barədə komanda verdim. Mən onda batareya komandiri idim. Biz artıq düşmənin artilleriya atəşlərinə alışmışdıq. Hitlerçilər, demək olar ki, hər gün eyni vaxtda mövqelərimizi atəşə tuturdular.

**- Müharibənin son günləri yaddaşınızda necə qalıb?**

- 1944-cü ildə bizim diviziya 1-ci Belorusiya cəbhəsinə daxil oldu. Diviziyamız Visla-Oder əməliyyatında, Berlin uğrunda gedən ağır döyüşlərdə iştirak etdi. Berlin əməliyyatı 16 aprel 1945-ci ildə başlandı, 2 may 1945-ci ildə başa çatdı. Mənim üçün müharibə 1945-ci il mayın 2-də Berlində yekunlaşdı. Yeni döyüş mövqelərini müəyyənləşdirməli olan qrupun rəisi idim. Bizə kəşfiyyat işləri aparmaq, məsələni elə yerindəcə araşdırmaq tapşırığı verilmişdi. Qoşunların ardınca hərəkət edərək mayın 2-də Berlinə çatdım. Orada hələ də ağır döyüşlər gedirdi. Korpusun nümayəndəsi dedi ki, divizion yerində qalır, mən isə geri qayıtmalıyam. Artıq Reyxstaq alınmışdı. Əsgərlər, zabitlər yaxınlıqdakı xarabalıqların fonunda görünən Reyxstaqın pilləkənlərində oturmuşdular. Reyxstaqın divarına mən də adımı yazdım. Sonra biz geri - Kunesdorfa qayıtdıq. Mayın 9-da Qələbə qazanıldı. Müharibə dəhşətdir, bunu etiraf etmək lazımdır. Belə bir fikir də var: "Kim fikirləşirsə ki, müharibə dəhşətli deyil, o, müharibə haqqında heç nə bilmir."

**- Müharibədən sonrakı xidmət yolunuz hansı ölkələrdən keçdi?**

- Bir il Almaniyada qaldım. 1946-cı ilin oktyabrında diviziyamız Pribaltikaya - Vilnüs şəhərinə köçürüldü. Bu zaman artıq demobilizasiya qurtardı. Amerikalılar öz atom bombasını partlatdılar. Ona görə də hava hücumundan müdafiə qüvvələrinin bütün zabitlərini xidmətdə saxladılar. Beləliklə, mən müharibədən sonra da orduda qalıb xidmətimi davam etdirdim. Atam və qardaşım isə müharibənin dəhşətlərini yaşayaraq geri döndülər. Əvvəlcə Vilnüsdə xidmət etdim. Sonra 1946-49-cu illərdə xidmətimi Bakıda davam etdirdim.1949-cu ildə Moskvada Dzerjinski adına Artilleriya Akademiyasına daxil oldum. 1954-cü ildə oranı bitirdim. Məni Bakıya göndərdilər. Divizion komandiri kimi xidmətə başladım. Alay, diviziya, korpus komandiri kimi, eləcə də Zaqafqaziya Hava Hücumundan Müdafiə dairəsinin komandanlığında xidmət etdim. Sonra dairə komandanının müavini təyin olundum. Varşava Müqaviləsi Təşkilatının nümayəndəsi kimi məni Çexoslovakiyaya göndərdilər. 1968-ci ildə diviziya komandiri olanda general-mayor rütbəsi aldım. Korpus komandiri olanda general-leytenant, 1980-ci ildə dairə komandanının 1-ci müavini olanda mənə general-polkovnik rütbəsi təqdim edildi.

**- Hansı orden-medallara layiq görülmüsünüz?**

- "Qırmızı ulduz", "Qırmızı bayraq", "Oktyabr inqilabı" ordenləri ilə təltif olunmuşam. Müharibədə iştirakıma görə aldığım orden - Böyük Vətən müharibəsi Qızıl ulduzunun 1-ci dərəcəsidir. "Döyüş xidmətlərinə görə" və "Berlinin alınmasına görə" medallarım var.

**- Sovet ordusundan ehtiyata neçənci ildə buraxıldınız?**

- 1987-ci ildə Çexoslovakiyada xidmətimi başa vurub Moskvaya qayıdandan sonra ehtiyata çıxdım.

**- Hələ sovet dönəmində ulu öndər Heydər Əliyevlə yaxın münasibətiniz olub. Bu barədə nə deyə bilərsiniz?**

- Dünyanın görkəmli liderlərindən biri olan Heydər Əliyevlə mən o, hələ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olanda tanış idim. 1969-cu ildə Heydər Əliyev Azərbaycan SSR MK-nın birinci katibi seçiləndə mən Rostovda korpus komandiri vəzifəsində xidmət edirdim. Bakı dairəsinə tabe idim. 1975-ci ildə mən dairə komandanlığına təyin ediləndə biz bir yerdə işlədik. Ulu Öndər hərbi xidmətlə çox maraqlanırdı. Tez-tez dairədə, qərargahda olurdu. Heydər Əliyevin təqdimatı əsasında 3 dəfə Ali Sovetin deputatı seçilmişəm. 1961 və 1981-ci illərdə Azərbaycan nümayəndə heyətinin, XXIV qurultayda isə Rostov nümayəndə heyətinin tərkibində Sov.İKP-nin qurultaylarında iştirak etmişəm.

**- Azərbaycan yenidən müstəqilliyini qazandığı ilk illərdə də ölkə Prezidenti, Ali Baş Komandan Heydər Əliyevlə birgə çalışdınız. Eyni zamanda, Azərbaycan Silahlı Qüvvələrinin yüksək rütbəli zabit heyətinə daxil olub, qazandığınız təcrübəni müstəqil Azərbaycanın ordu quruculuğuna tətbiq etdiniz...**

- Ümummilli lider Heydər Əliyev 1997-ci ildə mənə Prezidentin Hərbi məsələlər üzrə köməkçisi vəzifəsini tapşırdı. Beş il Ulu Öndərin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətinin ordu quruculuğunda iştirak etdim. Sonra 2002-ci ildə Müdafiə nazirinin müşaviri vəzifəsinə təyin olunaraq, Azərbaycan Ordusunda xidmətimi 2007-ci ilə qədər davam etdirdim. 84 yaşımda istefaya çıxdım. Mən çox xoşbəxt insanam ki, ömrümün 10 ilini müstəqil Azərbaycan dövlətinin Silahlı Qüvvələrində xidmətə həsr etmişəm.

**- Bu gün isə siz Azərbaycanın ən böyük təşkilatlarından birinə - Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına rəhbərlik edirsiniz. Çətin deyilmi?**

- Bir az yaşımla bağlı çətindir. Bu günlərdə 97 yaşımı qeyd etdim. Xidmətimlə, işimlə hər zaman xalqıma, millətimə şanşöhrət qazandırdım. Müharibə veteranlarının sayı getdikcə azalır. Bu, təbiətin pozulmayan qanunudur. Onların keçdiyi döyüş yolu bugünkü Azərbaycan gənclərinə örnəkdir. 3 ildir ki, bu təşkilata rəhbərlik edirəm. Dövlət başçısı İlham Əliyev müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar daima yeni fərman və sərəncamlar imzalayır. Onlara hərtərəfli diqqət və qayğı göstərir. Təşkilatımız MDB məkanında geniş fəaliyyət imkanlarına görə ən yüksək yerdədir.

**- Faşizm üzərində Qələbənin 75 illiyi ərəfəsindəyik. Bu əlamətdar günün qeyd edilməsinə necə hazırlaşırsınız?**

- Qələbənin 75 illiyinə ciddi hazırlaşırıq. Təşkilatımızın tərtib etdiyi plana əsasən, 75 illik yubiley ölkəmizdə və paytaxtda silsilə tədbirlərlə qeyd olunacaq. Azərbaycan Prezidentinin yubiley tədbirləri üzrə xüsusi tapşırıqları və sərəncamı da gözlənilir. Bizim təşkilatın üzərinə çox böyük məsuliyyət düşəcək.

**- Azərbaycan Ordusunun zabit və əsgərlərinə arzularınız...**

- Ən böyük arzum Azərbaycan Ordusunun Azadlıq meydanında keçirəcəyi Qələbə paradını görməkdir. İnanıram ki, danışıqlar bəhrə verməsə, bizim ordumuz işğaldakı torpaqlarımızı azad etmək gücündədir. Buna heç bir şübhə yoxdur. Ordumuz döyüşə hər an hazırdır.

**- Müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# "Hərbi aşpaz hazırlığı" kursu başa çatıb





*Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün fəaliyyət planına əsasən, "Hərbi aşpaz hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirən məzunların buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hazırlıq kursunda aşpazlara qidanın düzgün hazırlanması qaydaları, ərzaq məhsullarının emalı zamanı əmələ gələn tullantıların normaları, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsi, sanitariya-gigiyena tələblərinə ciddi riayət olunması və digər mövzular üzrə dərslər keçirilib.

Kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara və mülki işçilərə sertifikatlar təqdim edilib.

*Doğma Bakımız tarixi 1941-1945-ci illərin Böyük Vətən müharibəsi ilə bağlı acı xatirələrlə doludur. Milyonlarla insanın qəlbində kədərli iz qoyan bu müharibə 1418 gün və gecə davam edib. Faşistlərə qarşı döyüşlərdə 26 milyon 600 min insan itirən "SSRİ" adlı ölkə artıq müasir dünyanın xəritəsində yoxdu. Amma Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsi bütün postsovet məkanı xalqlarının yaddaşından silinməyib.*

*Qələbə - 75*

## Bakı müharibə illərini unutmur:

# Hər şey cəbhə üçün, hər şey qələbə üçün




AZƏRTAC xəbər verir ki, təkcə müharibənin ilk günlərində Azərbaycanın 40 mindən çox oğul və qızları cəbhəyə yollanmaq üçün hərbi komissarlığa müraciət etmişdi. Qısa müddət ərzində 186 704 nəfər könüllülər sırasına yazılmışdı. Azərbaycan əhalisinin hər beş nəfərindən biri əllərində silah faşistlərə qarşı vuruşub: 3,4 milyondan ibarət əhalinin 1941-ci ildə 681 min nəfəri (10 mindən çoxu qadın) cəbhəyə getmişdi. Respublikada 77-ci, 223-cü, 271-ci, 402-ci və 416-cı Azərbaycan milli diviziyaları formalaşdırılmışdı. Döyüş bölgələrində çoxmillətli Azərbaycanın bütün xalqlarının nümayəndələri: azərbaycanlılar və ruslar, yəhudilər və ləzgilər, tatarlar və gürcülər çiyin-çiyinə vuruşurdular. 300 mindən çox ölkə vətəndaşı müharibədən geri qayıtmadı. Hərbi hissələr üçün 15 min şəfqət bacısı və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı.

Qələbənin qazanılmasında əsas rol təkcə döyüşlərdə böyük şücaət göstərmiş, qələbə əzmi ilə vuruşmuş Azərbaycanın milli diviziyalarına deyil, həm də Bakıda gecə-gündüz fasiləsiz çalışaraq çox böyük işlər görmüş hərbi zavodlara məxsusdur. Ordunun döyüş ruhunun saxlanmasında 30140 yerlik 41 hərbi hospital da çox əhəmiyyətli rol oynayıb. Müharibə illərində ölkədə yaradılmış çoxsaylı təxliyə hospitalı şəbəkələri 440 mindən çox yaralıya tibbi yardım göstərib. Azərbaycan cərrahları ən çətin əməliyyatlar keçirib. Palata həkimlərinin və tibb bacılarının vaxtlarını və güclərini əsirgəmədən böyük qayğı ilə həyata qaytardıqları minlərlə əsgərin çoxu yenidən sıraya - ön cəbhəyə yola düşüb. Xəstəxana palatalarında, hospitallarda məktəblilər vətənpərvərlik mövzusunda mahnı və şeirlər oxuyub. Öz konsert proqramları ilə həm də cəbhə bölgələrinə gedən SSRİ-nin xalq artisti Bülbül Məmmədovun rəhbərlik etdiyi artist briqadalarının çıxışları yaralılar üçün xüsusi bayrama çevrilirdi. Bülbülün ifa etdiyi mahnılar hərbçilərin döyüş ruhunu yüksəldir, sağlamlığının bərpasına kömək edirdi...

Bakının küçələrində bu gün də binaların fasadında "Bu binada 1941-45-ci illərdə təxliyə hospitalı yerləşib" kimi xatirə lövhələrinə rast gəlmək olur. Təxliyə hospitalları həm şəhərin mərkəzində, həm də Sabunçu, Mərdəkan, Buzovna qəsəbələrində yerləşirdi. Əgər divarlar danışa bilsəydi, dil açıb deyərdi ki, indiki Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin binasında həkim və tibb bacıları əzab çəkən xəstələrə gecə-gündüz necə tibbi yardım göstərir, onların qayğısına qalırdı. Xəstələrin, həmçinin məşhur mesenat Musa Nağıyevin vaxtsız vəfat etmiş oğlunun şərəfinə ucaltdığı ən gözəl binalardan biri olan Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında müalicə edildiyi bəlli olardı. Göründüyü kimi, Musa Nağıyevin Müsəlman Xeyriyyə Cəmiyyətinə bağışladığı "İsmailiyyə" binası öncədən xeyirxah məqsədlər üçün nəzərdə tutulub və bu divarlar həmin illərdə faşizmə qarşı vuruşan döyüşçülərin həyata qayıtmasına kömək edib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu) divarları yaralıların çoxsaylı iztirabları ilə yanaşı, sağalan döyüşçülərin sevincli anlarının şahidi olub.

İndi təsəvvür etmək çətindir ki, İçəri şəhərin Qoşa Qala darvazaları qarşısındakı meydandan Əmək sarayına (sonradan AHİK binası), demək olar, hər gün sanitar eşelonu ilə Bakı Dəmiryol Vağzalına gətirilmiş yaralılar xərəklə daşınıb. Xüsusən də o dövrün stasionar tibb müəssisəsinə çevrilmiş Üzeyir Hacıbəyli adına Konservatoriyada kəllə-beyin yarası ilə bağlı ən çətin cərrahiyyə əməliyyatlarının aparılması mümkünsüz görünür. Lakin bu müharibə dövrünün gerçəkliyi, müharibənin əvvəlindən keçən əsrin 40-cı illərinin sonuna qədər Bakı həyatı haqqında həqiqətdir. Hospitallar, həmçinin bir çox xəstəxanalarda, şəhər poliklinikalarında, mədəniyyət evlərində və məktəblərdə açılmışdı.

Bütün Azərbaycan və Bakı sakinləri cəbhəyə kömək üçün əlindən gələni əsirgəmirdi. Artıq 1942-ci ilin yazında Bakıda istehsal olunmuş "YAK-3" döyüş qırıcıları uçmağa başlamışdı. Həmin dövrdə Gəncə (əvvəlki Kirovabad) şəhərində fəaliyyət göstərən iri aviamotor zavodunda müxtəlif növlü 782 təyyarə, eləcə də 1550-dən çox aviamühərrik və digər ehtiyat hissələri təmir olunmuşdu.

Müharibə illərində Azərbaycan SSRİ-də istehsal olunan neft və neft məhsullarının ümumi həcminin 70 faizindən çoxunun əsas təchizatçısı idi. Sovet İttifaqı marşalı Georgi Jukov o vaxtlar yazırdı: "Bakı neftçiləri Vətəni müdafiə etmək, düşmən üzərində tez qələbə qazanmaq üçün cəbhəni kifayət qədər yanacaqla təmin edib".

Daha bir mühüm fakt: Rusiyanın Azərbaycandakı keçmiş səfiri Vasili İstratovun "Azərbaycanın təbii sərvətləri olmadan Böyük Vətən müharibəsində qələbə mümkün olmazdı" sözləri bu il, Qələbənin 75-ci ildönümündə tez-tez səslənir.

Statistika təsdiqləyir ki, müharibə illərində ümumən 75 milyon ton neft istehsal olunub ki, bu da hasil olunan bütün sovet neftinin dörddəüçünü təşkil edirdi. Neft məhsullarından 22 milyon ton benzin istehsal olunub ki, bu da ümumittifaq benzininin 80 faizi, liqroinin 90 faizi, yağlarını 96 faizi demək idi. Hasil olunan aviasiya benzininin 85 faizə qədəri Bakının payına düşürdü. Cəbhəyə 1 milyon tondan çox yüksək oktanlı benzin göndərilmişdi. Bu da onu göstərir ki, hər beş təyyarədən dördü, cəbhədəki tank və avtomobillər Bakı neft mədənlərində çıxarılmış, Bakı neftayırma zavodlarında istehsal olunmuş benzinlə işləyib. Mədənlərdə təşkil olunmuş 15 minlik oğlan və qızlardan ibarət gənc-cəbhə briqadaları cəbhəni fasiləsiz yanacaqla təmin edib.

Təəssüf ki, az adam xatırlayır və bilir ki, Azərbaycan təkcə öz nefti ilə şöhrət qazanmayıb. Bu müharibə illərində Azərbaycan haqqında az məlum olan faktlar xalqımızın təkcə qanlı müharibə cəbhələrində göstərdiyi əsl qəhrəmanlığı deyil, həm də ölkə əhalisinin arxa cəbhədəki təmənnasız əmək şücaətini əks etdirir. Belə ki, şəxsi əmanətlərdən müdafiə fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 320 milyon rubl pul verilib. Tank dəstələri və aviaeskadriliyalar yaradılması fondu üçün vəsait toplanarkən Ağdam rayonundan olan 90 yaşlı kolxozçu Səadət Nəcəfqızı fonda 30 min rubl keçirib. Cəbhəyə 1,6 milyondan çox zəruri mal və 125 vaqon isti paltar göndərilib.

Bakı müəssisələri 1942-ci ilin yayına qədər təkcə Leninqrada 2 vaqon sıxılmış kürü, 40 ton quru meyvə, 12 vaqon tomat-püre və şirə, çoxlu qaraciyər ekstraktı, hematogenlər, jelatinlər və digər ərzaq məhsulları, həmçinin dərman preparatları və sarğı vasitələri göndərib. Ərzaqla, avadanlıqla və pulla Stalinqrada, Stavropola və Krasnodar vilayətinə də əhəmiyyətli yardım göstərilib. Bakı müəssisələri Dnepr SES-nın, Azov limanının və digər mühüm obyektlərin bərpasında iştirak edib.

1941-1945-ci illər Böyük Vətən müharibəsi salnaməsi sərt və acıdır. Bakı bu hərb salnaməsinə dünya tarixində əsrlər boyu yaşayacaq qəhrəmanlıq səhifələri yazdı. Bu il dünyanın bir çox ölkələri tərəfindən Qələbənin 75 illiyi qeyd olunur. Yüksək şücaət, yenilməz qələbə əzmi göstərmiş babalarının və atalarının döyüş ənənələrini davam etdirən Azərbaycan Ordusunun əsgərləri sadiq davamçılar kimi bu gün də Azərbaycan Respublikasının sərhədlərinin keşiyində dayanırlar.

# Novruz həm də müqəddəslik bayramıdı

*Azərbaycan xalqının zəngin milli dəyərlər sistemini və adət-ənənələrini özündə yaşadan bayramlar sırasında Novruz xüsusi yer tutur. Xalqımızın mənəvi dünyası və həyata baxışı Novruz mərasimlərimdə dolğun əks olunub, bu bayram milli varlığın rəmzinə çevrilib. Ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən Novruz bayramı milli dəyərlərimizin əbədiyaşarlıq rəmzidir. Novruzun rəsmi bayram statusu alması və Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Baharın gəlişini, təbiətin oyanışını, həyatın canlanmasını müjdələyən Novruz bayramı ərəfəsində Vətən, millət, torpaq uğrunda savaş meydanına atılanların fikirlərini və bayram təbriklərini qələmə almaq məqsədilə "N" hərbi hissəsində olduq.*



Xalqımızı əziz bayram münasibətilə təbrik edən ilk hərbçi **müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Namiq Məmmədov** oldu:

- Xalqımızın tarixi qədər qədim olan bayramlarımızdan biridi Novruz bayramı. Novruz bayramı təkcə təbiətin görkəminin dəyişməsiylə bağlı qeyd olunan bayram deyil. Novruzda təbiət kimi duyğular da təzələnir, təravətlənir, gözəlləşir. Hər arzu, hər niyyət bu təzələnmədən, təravətlənmədən, gözəlləşmədən rişələnir.

Yüksək döyüş əzminə, qələbə ruhuna malik olan Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Azərbaycançılıq ideologiyası hər birimizin mənəvi aləminin Günəşidi. Milli bayramlarımızın mahiyyətini gərəkli səviyyədə dərk edirik.

Vətənə xidmət hər bir kəsin borcudur. Bizim borcumuz isə tabeliyimizdə olan şəxsi heyətlə nizamnamə çərçivəsində hərəkət etmək, onların bir hərbçi kimi formalaşmasında yaxından iştirak etməkdi. Hər zaman yenilənən şəxsi heyətə hərbi texnikanı öyrətməyi, vətənpərvərlik hissini aşılamağı özümüzə borc bilirik. İstəyimiz odur ki, onlar Vətənə layiqli övlad olsunlar, Vətəni qorusunlar. Bu gün Azərbaycanın ən ağrılı problemi Dağlıq Qarabağdır, hələ də işğal altında olan torpaqlarımızdır. Biz belə möhtəşəm bayram tonqallarının işğal altında olan dədə-baba torpaqlarımızda da alovlandırılacağına qətiyyətlə inanırıq. Bu günün heç də uzaqda olmadığını bilirik. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlibdir. Cəmiyyətdə indi müşahidə olunan həmrəylik, səfərbərlik, iqtisadi və hərbi gücümüz bizim qələbəmizi şərtləndirən amillərdən biridir. Biz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik."

Xalqımızı və Azərbaycan Ordusunun bütün şəxsi heyətini bir daha bu gözəl bayram münasibətilə təbrik edir, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə günbəgün inkişaf edən ölkəmizdə hər birinə firavan həyat arzulayıram".

**Əsgər Əli Əlizadə** də bayram münasibətilə xalqımızı və şəxsi heyəti təbrik etdi.

- Bu gün ordumuzun döyüş ruhu, hərbi-taktiki hazırlığı düşmənə cavab verməyə, ona qalib gəlməyə yetərlidir. Əsgərlərimizin mənəvi-psixoloji durumu, ruh yüksəkliyi, vətənpərvərliyi də ən yüksək səviyyədədir. Azərbaycan Ordusunun şəxsi heyəti Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır, qadirdir və bunun üçün böyük imkanlara malikdir.

Təbii ki, bu inamı əsas yaradan Azərbaycanın iqtisadi tərəqqisi fonunda müdafiə qüdrətinin artırılması istiqamətində atılan biri-birindən əhəmiyyətli addımlardır. Keçirilən hərbi paradlarda nümayiş etdirilən ən müasir hərbi texnika, döyüş silah və sursatı bir daha belə əminlik yaradır ki, biz hərb istəmirik, amma hərbə hər an hazırıq. Bu gün Azərbaycan Ordusunun döyüş qabiliyyəti gündən-günə artır. Bu gün ordumuz hər bir azərbaycanlı üçün qürur mənbəyidir.

Bahar bayramına sayılı günlər qalır. Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən Novruz bayramı özü ilə xoş əhval-ruhiyyə, yaxınlarla isti təmas, bir də çox sevdiklərimizə təbriklər gətirir. Bu bayramı mən də sevirəm və özümü xoşbəxt sanıram ki, yüksək diqqət və qayğı ilə əhatə olunduğum, Vətənə xidmət missiyamı şərəflə yerinə yetirmək üçün hər cür şəraitin yaradıldığı bir ordunun əsgəriyəm. Bu bayram günündə bütün xalqımızı səmimi qəlbdən təbrik edirəm, şəxsi heyətimizə isə tezliklə torpaqlarımızı işğaldan azad edərək xalqımıza sevinc bəxş etməyi arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Nicat Mehdiyev:**

- Hərbi xidmət mənim də formalaşmağımda müstəsna rol oynayıb. Hamı kimi mən də ordumuzun qüdrətiylə qürurlanırdım. Ordumuzun yaranmasının



və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradları mən də fəxrlə izləmişdim. Hərbçi olmağı qərara aldım. İndi hərbi xidmətdəyəm. Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edirəm, zabitlərin əmr və göstərişlərini vaxtında və böyük məsuliyyətlə yerinə yetirirəm.

Xalqımızın ən əziz bayramlarından biri də Novruz bayramıdı. Bu bayramı hamı kimi, hərbçilər də könül xoşluğu ilə



qarşılayırlar. Bu əziz gündə xidmət yoldaşlarım adından xalqımıza ən böyük istəyinə çatmağı - torpaqlarımızın işğaldan azad edilməsi gününün sevincini yaşamağı arzu edirəm.

**Əsgər Elvin Məmmədov:**

- Uşaqların ən çox sevdiyi bayramlardan biri, bəlkə də birincisi Novruz bayramıdı. Hər birimiz bu bayramın adətlərini sevinə-sevinə, sevindirə-sevindirə yaşamışıq. Yumurta boyamışıq, döyüşdürmüşük, səməni göyərtmişik, tonqallar qalamışıq.

İndi hərbi xidmətdəyəm. Döyüş növbətçiliyi aparan əsgər kimi deyirəm ki, biz yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikik, hər birimiz yüksək döyüş əzmiylə, qələbə ruhuyla xidmət edirik. Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağıq. İşğaldan azad edəcəyimiz torpaqlarda da Novruz tonqalları qalanacaq.

Novruz xoş ovqat bayramıdır. Mən hərbi xidmətdə olan əsgərlərə, zabitlərə, ümumən xalqımıza cansağlığı, könül xoşluğu arzulayıram. Ən gözəl könül xoşluğu torpaqlarımızın işğaldan azad edilməsidi. O günün sevinci daha möhtəşəm olacaq. Azərbaycanımıza belə möhtəşəm sevinc arzulayıram.

**Əsgər Əli Rəhimov:**

- Atam həmişə Cavanşir Eloğlunun bir şeirini deyərdi:

Uşaqlıq illərim harada qaldı...

Uşaqlıq illərində oyunlar da, o illərdə bayramların dadı-duzu da yada düşəndə adamı kövrəldir. Novruz bayramı ona görə müqəddəs bayramdır ki, hansı yaşda olursan-ol, bu bayramın gözəlliyini öz adına layiq şəkildə yaşayırsan.

Uşaqlıq illərində mən də tonqallar qalamışam, üstündən atılmışam. Həmyaşıdlarım kimi böyümək arzusuyla, niyyətiylə. Böyüdüm, orta təhsilimi başa vurdum, hərbi xidmətə çağırıldım.

Nümunəvi xidmət edirəm. Bu yaxınlarda Müdafiə naziri general-polkovnik Zakir Həsənov ön xətdə mənə də qiymətli hədiyyə verdi. Bu, mənim hərbi xidmətə məsuliyyətimi artırmaqla, digər əsgərlərin də hərbi xidmətə münasibətində əhəmiyyətli olacaq.

Novruz bayramı münasibətilə xalqımızı, bu sıradan bütün hərbi qulluqçuları təbrik edirəm. Arzu edirəm ki, növbəti Novruz bayramı işğaldan azad edəcəyimiz torpaqlarımızda da qeyd olunsun!..

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**16 mart 2020-ci il.**

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən komanda-qərargah təlimi başa çatıb.

Təlimə ümumqoşun birləşmə və hissələrinin qərargahları ilə birgə gücləndirmə vasitə və qüvvələrinin əməliyyat qrupları da cəlb edilib.

Təlimdə qərargahlar tərəfindən yeni döyüş təlimatlarının müddəalarının tələblərinə uyğun hesablamalar aparılaraq, qəbul olunan qərarlara əsasən praktiki fəaliyyətlərə cəlb edilən qüvvələrin fəaliyyətləri qiymətləndirilib.

Qoşunların cəmləşmə rayonlarında, atəş və start mövqelərində yerləşməsi, eləcə də döyüş fəaliyyətlərinin gedişi zamanı aviasiya və raket-artilleriya zərbələrinin endirilməsi üçün müvafiq bölmələrin çağrılması və ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyəti praktiki olaraq məşq etdirilib.

Ümumqoşun, raket-artilleriya, hava hücumundan müdafiə və digər qoşun növü bölmələrinin məhdudgörmə şəraitində yerdəyişməsi həyata keçirilib, bir istiqamətdən digərinə hərəkət zamanı manevretmə qabiliyyətləri və aparılan hesabatların reallığı yoxlanılıb.

Komanda-qərargah təliminin sonunda mərhələsində Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində hər iki tərəfin fəaliyyəti, qərarların və apardıqları hesablamaların reallığı kompüterlər üzərində keçirilən təlimdə qiymətləndirilib.

Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılan zaman qarşıya qoyulmuş məqsədlərə nail olunduğu bildirilib, təlimə cəlb olunan birləşmə və hissələrin komandir və qərargahlarının fəaliyyətləri qiymətləndirilərək, aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində tapşırıqlar verilib.

**19 mart 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Məişət xidməti*

# "Əsgərlərə göstərilən diqqət və qayğı həmişə yüksəkdir"



*Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu islahatlar nəticəsində hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması, sosial təminatının yüksək səviyyəyə çatdırılması istiqamətində mühüm addımlar atılır. Müasir tələblər əsasında qurulan yeni hərbi hissələr şəxsi heyətin istifadəsinə verilir. Yaradılan bu cür şərait gənclərin orduya qarşı münasibətini tamamilə dəyişib. Azərbaycan gəncləri belə güclü ordunun əsgəri olmaq, Vətənimiz qarşısında övladlıq borcunu həvəslə yerinə yetirmək istəyirlər. Ordu sıralarında xidmət edən şəxsi heyət isə gündən-günə döyüş, atəş, fiziki və mənəvi psixoloji hazırlıqlarını artırır. Bunun nəticəsidir ki, ordumuz beynəlxalq reytinqlərə görə dünya miqyasında ən güclü ordular sırasındadır.*

"N" hərbi hissəsində əsgərlərimizin sosial-məişət şəraiti ilə tanış olduq. Gördüklərimiz bizdə xoş təəssüratlar yaratdı. Şəxsi heyəti heç bir məişət problemi narahat etmir. Yuxarı komandanlığın qarşıya qoyduğu ən vacib məsələ əsgərlərimizin nümunəvi xidmət etmələri üçün mümkün olan bütün şəraiti yaratmaqdır. Bizi müşayiət edən zabitlə yataqxanaya daxil olanda bir neçə əsgərin səliqə-sahman yaratdığını gördük. İşlərini yekunlaşdırdıqdan sonra onlarla həmsöhbət olduq.

Yaradılan sosial-məişət şəraitindən danışan əsgərlər Tural Teymurov və Əliağa Ağayev bildirdilər ki, yuxarı komandanlıq tərəfindən əsgərlərin məişət şəraitinə göstərilən diqqət və qayğı hamımızın ürəyincədir. "Şəxsi heyətin döşək ağlarının dəyişdirilməsi, çimməsi, paltarlarının yuyulması komandirlərin diqqət mərkəzindədir."

- Bizə yaradılan şəraitə görə yuxarı komandanlığa minnətdarlığımızı bildiririk, - deyə əsgər T.Teymurov söhbətə başladı. - Biz yalnız döyüş hazırlığımızı artırmaqla məşğuluq. Çalışırıq ki, üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələk, komandirlərimizin etimadını doğruldaq. Azərbaycan əsgəri düşməndən qat-qat güclü və üstündür. Ermənilər bilmələdirlər ki, 2016-cı ilin Aprel döyüşləri Böyük Qələbəyə gedən yolun başlanğıcıdır. Bu müqəddəs tapşırığı uğurla yekunlaşdıracağımız günə az qalıb. Hər birimiz düşməni məhv edərək onu torpaqlarımızdan qovub çıxaracağımız, torpaqlarımızı işğaldan azad edəcəyimiz günü səbirsizliklə gözləyirik.

Bərbər otağındakı səliqə-sahman da göz oxşayırdı. Otaqda bərbərə aid hər cür ləvazimat var. Əsgərin sərbəst və səlist işləməsi onun peşəkarlığından xəbər verirdi. İşini bitirdikdən sonra əsgər Hilal Novruzov özünü təqdim etdi. Dedi ki, əsgər səliqəsi həmişə önəmlidir. "Hərbi xidmətdə öyrəndiyimiz müsbət keyfiyyətlər çoxdur. Onlardan biri də nizam-intizam və səliqə-sahmandır. Bu baxımdan əsgər yoldaşlarımın saçlarının həmişə təlimata müvafiq olaraq, qısa və səliqəli olmasına nəzarət edirəm. Hər zaman çalışıram ki, silahdaşlarımın saç düzümü səliqəli olsun. Çünki biz bir ailəyik. Məqsədimiz işğal altında olan torpaqlarımızı azad etməkdir. İnanırıq ki, tez bir zamanda Ali Baş Komandanımızın döyüş əmri ilə arzumuza nail olacağıq".



Saç düzümünə güzgüdə nəzər salan əsgər Məmmədağa Nəcəfzadənin üzündə məmnunluq hissini görməmək mümkün deyildi. Əsgər bildirdi ki, hərbi hissədə yaradılan şərait imkan verir ki, üstbaşımızı daim səliqəli saxlayaq. "Saç düzümümüzü qaydaya salır, hər günün sonunda paltarlarımızı ütüləyir və bununla da sıra baxışına hazırlaşırıq. Əsgər yoldaşlarım kimi mən də yaradılan şəraitdən və qayğıdan razıyam. Bu cür yüksək şərait üçün komandanlığa dərin minnətdarlığımızı bildiririk. Belə şəraitin qarşılığında dövlətimizin, ordumuzun adına layiqli və hər an döyüşə hazırlıqlı əsgər olmaq başlıca vəzifəmizdir."



Saxlanc otağında camaşırxanadan gələn təmiz və ütülü yataq dəstlərinin, dəsmalların, əsgərlərin ehtiyat əşyalarının səliqə ilə yığıldığı gözümüzdən yayınmadı. Bölüyün baş çavuşu qeyd etdi ki, hərbi qulluqçuların şəxsi gigiyenası çox vacibdir. "Onların bütün əşyaları hər həftə yenisi ilə əvəz olunur. Çirklilər isə təmizlənmək üçün camaşırxanaya göndərilir. Corablar vaxtlı-vaxtında yenisi ilə əvəz edilir. Əl-üz sabunları tez-tez dəyişilir. Ordunun gücü onun sıralarında xidmət edən sağlam, peşəkar əsgərlərlə ölçülür."

Əsgər Fərid Hacıyev atasının hərbçi olduğunu dedi. O, Kəlbəcər istiqamətində gedən ağır döyüşlərin iştirakçısı olub. Atasının "Açıq qapı" günündə hərbi hissədə yaradılan şəraiti görəndə çox sevindiyini, ötən illərlə müqayisədə sosial-məişət şəraitimizin olduqca yüksək səviyyədə olduğunu dedi. Əsgər bildirdi ki, hər həftə paltarları yeniləri ilə əvəz olunur. "Gigiyenaya ciddi nəzarət edilir. Belə şəraitin qarşılığında xidmətimizi düzgün təşkil etməli, torpaqlarımızın azadlığı uğrunda canımızdan, qanımızdan keçməyə hazır olmalıyıq. Komandirlərimizin sayəsində döyüş, atəş, fiziki hazırlığımızı gündən-günə artırırıq. Hər an Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad etməyə hazırıq".

Şahidi olduğumuz yüksək məişət şəraiti bir daha sübut edir ki, ölkə rəhbərliyi tərəfindən hər bir hərbi qulluqçuya yüksək diqqət və qayğı göstərilir. Şəxsi heyətin məişət şəraitinin ən yüksək səviyyəyə çatdırılması istiqamətində daim işlər aparılır. Bu amillər isə əsgərin mənəvi-psixoloji hazırlığının və döyüş ruhunun yüksəldilməsinə xidmət edir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Boksçumuz Tayfur Əliyev "Tokio 2020"yə lisenziya qazanıb



Boks üzrə Azərbaycan milli komandası "Tokio 2020" Yay Olimpiya Oyunlarına ilk lisenziyasını qazanıb. Yığmamızın heyətində Tayfur Əliyev (57 kq) bu hüquqa yiyələnib.

Avropa Oyunlarının mükafatçısı Böyük Britaniyanın paytaxtı Londonda keçirilən Avropa Olimpiya Təsnifat Turnirində dörddəbir finala yüksəlməklə "Tokio 2020"də iştirak hüququna sahib olub. İyirmi üç yaşlı boksçu səkkizdəbir finalda Edqaras Skurdelisdən (Litva) üstün olub. Rəqibi ilk hissədə zədələndiyindən döyüşü davam etdirə bilməyib və T.Əliyev qalib elan olunub.

## Azərbaycan triatlonçusu açıq Afrika kubokunda bürünc medal qazanıb



Triatlon üzrə Azərbaycan yığma komandasının üzvü Kseniya Levkovskaya bu il beynəlxalq arenada ilk mükafatını qazanıb. İdmançımız Mavrikidə keçirilən açıq Afrika kuboku yarışlarında bürünc medal qazanıb.

İdmançımız su yarışlarında 1500 metrlik məsafəni 21 dəqiqə 37 saniyəyə başa vurub. Levkovskaya velosipedlə hərəkətlərdə 40 kilometrlik məsafəni 1 saat 3 dəqiqə 54 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 10 kilometr məsafəyə qaçışda isə təmsilçimiz 37 dəqiqə 21 saniyəlik nəticə göstərib. Ümumi hesabda Azərbaycan idmançısı 2 saat 3 dəqiqə 47 saniyəlik göstərici ilə üçüncü yeri tutub.

Açıq Afrika kuboku Olimpiadaya seçmə turniri statusuna malik reytinqli yarışdır.

## Kalininqradda Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynovun xatirə turniri keçirilib



Kalininqrad şəhərində azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynovun xatirə turniri keçirilib.

Gənclər arasında güləş turniri iki kateqoriyada - sərbəst və yunan-Roma güləşi üzrə keçirilib. Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə təşkil olunan yarışlar Sovet İttifaqı Qəhrəmanı, 67-ci zenit-artilleriya diviziyasının komandiri, qvardiya polkovniki, həmyerlimiz Həbibulla Hüseynovun xatirəsinə həsr olunub. Turnirə yaşı 14-dək olan 100-ə yaxın idmançı qatılıb.

"Azərbaycan" regional milli-mədəni muxtariyyətinin dəstəyi ilə keçirilən turnirin təşkilatçısı qismində "İnam" Kalininqrad regional müsəlman ictimai təşkilatı çıxış edib.

Xatırladaq ki, Böyük Vətən Müharibəsinin iştirakçısı polkovnik Həbibulla Hüseynov 1945-ci il aprelin 16-da Almaniyada qəhrəmancasına həlak olub.

## Paralimpiyaçı atletlərimiz Qran-Priyə Antalyada hazırlaşırlar



Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) atletika idman növü üzrə komandası Antalyada təlim-məşq toplanışında iştirak edir.

Hazırlıq prosesi martın 22-29-da Braziliyanın San-Paulo şəhərində keçiriləcək Qran-Priyə hazırlıq məqsədi daşıyır.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 145
Nüsxə 3900